**AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

**№ 21**

**Bakı şəhəri** **"3" noyabr 2016-cı il**

**"Bazar araşdırmasının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin seçilməsi ilə bağlı müsabiqənin təşkili və keçirilmə Qaydası"nın təsdiq edilməsi barədə**

"Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanının 6.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli, 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11.2-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyası

**qərara alır:**

1. "Bazar araşdırmasının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin seçilməsi ilə bağlı müsabiqənin təşkili və keçirilmə Qaydası" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsinin müdiri Anar Əliyevə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədi ilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.
4. Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin Daxili araşdırmalar sektorunun müdiri Elgün Qədirova tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.
5. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının 2016-cı il 3 noyabr tarixli iclasının protokolu.

**Sədr,**
**iqtisadiyyat naziri** **Şahin Mustafayev**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının 3 noyabr 2016-cı il tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**Bazar araşdırmasının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin seçilməsi ilə bağlı müsabiqənin təşkili və keçirilmə Qaydası**

1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın 3.3-cü bəndinə əsasən hazırlanmışdır və bazar araşdırmasının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin seçilməsi ilə bağlı müsabiqənin təşkili və keçirilmə qaydalarını müəyyən edir.

2. Müsabiqənin keçirilməsinin məqsədi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 1063 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"na uyğun olaraq bazar araşdırmasının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin şəffaflıq və bərabərlik şəraitində seçilməsindən ibarətdir.

3. Bazar araşdırması üçün sifarişləri qəbul ediləcək ixracatçıların seçilməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi kollegiyasının 2016-cı il 18 oktyabr tarixli 19 nömrəli qərarı ilə təsdiq edilmiş "Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin təşkili və keçirilmə Qaydası"na uyğun olaraq həyata keçirilir.

4. Bu Qaydanın 3-cü hissəsinə əsasən seçilmiş ixracatçıların sifariş etdiyi bazar araşdırmalarının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin seçilməsi ilə bağlı müsabiqə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir.